

# İnsan alveri qurbanlarının müəyyənləşdirilməsi

**_Potensial qurban müsahibə vermək istəməyə, yaxud bunu etmək iqtidarında olmaya bilər (məsələn, travma səbəbindən). Əlavə olaraq, faktiki insan alverinin qurbanı olduqlarına və qaçaqmalçılıq yolu ilə başqa ölkəyə aparılmadıqlarına və ya digər tənzimlənməyən miqrant olmadıqlarına, yaxud yardıma və ya müdafiəyə ehtiyac duya bilən istismar və ya müdafiəsiz vəziyyətdə olan digər fərdlər olmadıqlarına əminlik üçün insan alverinin potensial qurbanlarının yoxlanılması vacibdir. Bu prosesdə potensial qurbana insan alveri ilə bağlı xüsusi suallar verməzdən əvvəl, hər bir işlə bağlı hallar nəzərdən keçirilməlidir._**

İlkin istiqamətləndirmə: potensial qurban ilkin istiqamətləndirməyə görə cavabdeh olan quruma yönəldilir və ya özü müraciət edir: cavabdeh qurum dövlətlərin qanunvericiliyindən və siyasətlərindən asılı olaraq fərqlənəcəkdir. Əsas ehtiyaclar və informasiyaya çıxış imkanı: potensial qurbanların mühüm informasiya ilə təmin edilməsi və bildirilən narahatedici məqamlara və ya fövqəladə ehtiyaclara cavab olaraq onların təxirəsalınmaz ehtiyacları barədə sorğu aparma. Erkən risk qiymətləndirməsi: mümkün riskləri nəzərdən keçirmə və potensial qurbanın təxirəsalınmaz şəkildə təhlükəsizliyini təminetmə. Dil və tərcümə: potensial qurbanların başa düşdükləri dildə ünsiyyəti təmin etmə. Bərpa və düşünmə müddəti: potensial qurbanların növbəti addımlar barədə düzgün qərar verə bilmələrini təmin etmək üçün onlara vaxt və imkan yaratma. İnsan alverinin indikatorları İndikatorlar nailiyyət, dəyişiklik və ya icranı qiymətləndirmək üçün sadə və etibarlı əsası təmin edən kəmiyyət və keyfiyyətlə bağlı ölçüdür. Onlar vəziyyətin əlamətlərini üzə çıxarır və hər hal üçün ayrı-ayrılıqda istifadə edilməli olan çevik bir alətdir. Bütün və ya yalnız bir indikatorun qənaətbəxş olması tələb edilmir: vacib məqam odur ki, indikatorlar şəxsin insan alverinin potensial qurbanı ola biləcəyi potensial vəziyyəti göstərir. İndikatorlar sonra daha təfsilatlı şəkildə müəyyənləşdirmə və əlavə indikatorlardan istifadə etmə imkanını verir. İndikatorlar insan alverinin bütün formalarına tətbiq edilə bilən “ümumi indikatorlara” və istismarın ayrı-ayrı növləri üçün “xüsusi indikatorlara” bölünür. İndikatorlar, həmçinin, müşahidələr yolu ilə aşkar edilən “obyektiv indikatorlara” və əsasən, müsahibələr və araşdırma yolu ilə aşkar edilən “subyektiv indikatorlara” bölünür. Yadda saxlamaq lazımdır ki, bunlar yalnız indikatorlardır və tək və ya birlikdə, onlardan heç biri şəxsin yəqinliklə insan alverinə məruz qalması demək deyildir.Lakin indikatorların mövcudluğu əlavə araşdırmalara yol açacaqdır. Əksər dövlətlərdə qurbanların yalnız kiçik bir hissəsi, formal olaraq, müəyyən edilir və xeyli hissəsi istismar vəziyyətində qalır. Cinsi istismar məqsədilə insan alveri Avropada və Mərkəzi Asiyada insan alverinin ən çox aşkar olunan formasıdır. Bu, onun üçün belə ola bilər ki, istismarın digər formaları, xüsusilə də, məcburi əməyə məruz qalan əməkçi miqrantlar, ölkə hüdudlarında insan alver və uşaq alveri halları müəyyən edilmir. Ümumi indikatorlar. Bu indikatorlar yaşlı insanların alveri ilə bağlıdır və ümumi olaraq, onu göstərir ki, şəxs potensial qurban ola bilər. Şəxsin insan alverinin qurbanı olub-olmadığını müəyyən etmək üçün əlavə araşdırma, müsahibə və xüsusi indikatorlardan istifadə zəruri ola bilər. Müşahidə edilə bilən indikatorlar, “obyektiv” indikatorlar olduğu halda, əmin olmaq məqsədilə potensial qurbanla müsahibə aparmaq üçün ehtiyac duyduğunuz hər hansı bir indikator isə “subyektiv” indikatordur. İnsan alveri qurbanının ümumi indikatorları. Şəxs(lər)in nəzarət altında olduğuna dair dəlillər; Öz iş mühitində hərəkətetmə və ya onu tərketmə imkanının olmamasına dair dəlillər; Zədə izləri və ya fiziki zorakılığın digər əlamətləri; Qorxu və ya depressiya; Yerli dili bilməmə; Bir ölkədən digər dövlətə, məsələn, Şərqi Avropaya, Cənubi Amerikaya, ABŞ-a, Afrikaya və ya Hindistana yenicə gətirilmə; Pasportun, immiqrasiya və ya şəxsiyyəti təsdiq edən digər sənədin olmaması; İşəgötürənlə birgə yaşama; Yoxsul yaşayış şəraiti; Sıx məkanda çoxlu sayda insanın olması; Hər hansı bir şəxslə təklikdə danışmaq imkanının olmaması; Cavabların əvvəlcədən hazırlanmış və öyrədilmiş şəkildə verilməsi; Qorxu və narahatlığı büruzə vermə; Ödənişin olmaması və ya çox cüzi olması; Hakimiyyət orqanlarına inanmama; İş və ya ev ünvanını bilməmə; Qazanclarına çıxış imkanının olmaması; Tibbi xidmətlərə çıxış imkanının olmaması; Onların borc asılılığında olmalarını anlama; Cəmiyyətlə əlaqənin məhdud olması və ya olmaması; Saxta vədlər əsasında hərəkət etmiş olma; Öz ailələri və ya olduqları mühitdən kənardakı insanlarla məhdud əlaqəyə malik olma; Uzun müddətdə həddən artıq uzanan iş vaxtı; İstirahət günlərinin olmaması; Hakimiyyət orqanlarına təhvilverilmə ilə hədələnmə; İmmiqrasiya statusunun üzə çıxacağından qorxma. Xüsusi indikatorlar. Potensial qurban istismarın xüsusi bir formasında olduqda, bu indikatorlar tətbiq oluna bilər (İstismarın formalarının anlayışları). Cinsi istismar bu indikatorlara potensial qurbanın cinsi istismara cəlb edilib-edilməməsini yəqin etmək üçün baxılmalıdır). Cinsi istismarın indikatorları Yaşın 30-dan aşağı olması, baxmayaraq ki, yaş yerə və bazara görə dəyişə bilər; Bir fahişəxanadan digərinə getmə və ya müxtəlif yerlərdə işləmə; İşə, mağazaya gedərkən və gələrkən müşayiət olunma; İstismar edən şəxslərə “məxsus olmanı” göstərən döymə yazılara və ya digər işarələrə malik olma; Uzun sürən iş vaxtı və ya istirahət verildikdə belə günlərin sayının cüzi olması; İşlədiyi yerdə yaşama; Qrup şəklində, bəzən eyni dildə danışmayan başqa bir qadınla yaşama və ya harasa getmə; Çox cüzi sayda geyimə malik olma; Səciyyəvi olaraq, qazanc üçün cinsi xidmətlər göstərərkən, geyinilən növdə geyimlərə malik olma; Yerli dildə və ya müştərilərin dilində yalnız cinsi xidmətlərlə bağlı sözləri deyə bilmə; Heç bir nağd vəsaitə malik olmama; Şəxsiyyəti təsdiq edən sənədi göstərə bilməmə; Aşağıdakılar da şəxslərin cinsi istismar üçün insan alverinə məruz qalmaları göstərə bilər; Ehtimal edilən qurbanların qorunmadan və ya zorla cinsi əlaqəyə məcbur edilməsinə dair dəlillər mövcuddur; Ehtimal edilən qurbanların qorunmadan və ya zorla cinsi əlaqəyə girməkdən imtina edə bilməməsinə dair dəlillər mövcuddur; Şəxsin alınmış və ya satılmış olmasına dair dəlillər mövcuddur; Qadınlardan ibarət qrupların digər şəxslərin nəzarəti altında olmalarına dair dəlillər mövcuddur; Hər hansı bir etnik mənsubiyyəti və ya milliyyəti olan qadınların xidmətlərinin təklif olunduğu fahişəxanalar və ya oxşar yerlər üçün elanların yerləşdirilməsi; Cinsi xidmətlər göstərən işçilərin ayrıca bir etnik mənsubiyyəti və ya milliyyəti olan müştərilərə xidmətlər göstərməsinin bildirilməsi. Cinsi xidmətlər göstərənlərin üzündə təbəssümün olmamasına və ya onların ünsiyyətə girməmələrinə dair müştərilər tərəfindən məlumatların verilməsi. Məcburi əmək bu indikatorlara qurbanın məcburi əmək üçün istismar olunub-olunmadığını yəqin etmək üçün baxılmalıdır. Bunlar bütün vəziyyətlərdə, o cümlədən, ilk olaraq, əməyin istismarı və ya tənzimlənən və ya tənzimlənməyən əməkçi miqrantların olduğu müqavilədən irəli gələn mübahisələr kimi görünən hallarda tətbiq olunmalıdır. Əməyin istismarının indikatorları. Qruplar halında işlədikləri yerdə yaşama və bu yerləri, ya ümumiyyətlə, təkr etməmə, ya da nadir hallarda tərk etmə; Kənd təsərrüfatı və ya sənaye binaları kimi alçaldıcı, qeyri-münasib yerlərdə yaşama; Gördükləri işə uyğun gəlməyən şəkildə geyinmə: məsələn, onlarda qoruyucu vasitələr və ya isti geyim olmaya bilər; Yemək üçün ancaq qida atqıntıların verilməsi; Öz qazanclarına çıxış imkanının olmaması; Əmək müqaviləsinin olmaması; İş vaxtının həddən artıq olması; Bir sıra xidmətlər, o cümlədən, iş, nəqliyyat və yaşamaq üçün yerə görə işəgötürəndən asılı olma; Yaşamaq üçün yerlə bağlı seçimin olmaması; İşəgötürənləri olmadan iş yerinin heç vaxt tərk edilməməsi; Sərbəst şəkildə hərəkət edə bilməmə; Onları iş yerində saxlamaq məqsədini daşıyan təhlükəsizlik tədbirlərinə məruz qalma; Cərimələr vasitəsilə intizama öyrətmə; Təhqirlərə, istismara, hədə-qorxulara və ya zorakılığa məruz qalma; Əsas təlim və peşə lisenziyalarının olmaması; Məsələn, sağlamlıq və təhlükəsizliklə bağlı əsas bildirişlər istisna olmaqla, bildirişlərin yerli dildən başqa bir dillərdə yerləşdirilməsi. Sağlamlıq və təhlükəsizliklə bağlı bildirişlərin olmaması; İşəgötürən və ya idarə edən şəxsin digər ölkələrdən olan fəhlələrin işə götürülməsi üçün tələb olunan sənədləri göstərmək iqtidarında olmaması; İşəgötürən və ya idarə edən şəxsin fəhlələrə ödənilən əmək haqları ilə bağlı qeydləri göstərmək iqtidarında olmaması; Sağlamlıq və təhlükəsizliklə bağlı avadanlığın aşağı keyfiyyətdə olması və ya ümumiyyətlə, olmaması; Uşaqlar tərəfindən işlədilə bilmə üçün nəzərdə tutulan və ya dəyişiklik edilən avadanlıq; Əmək qanunlarının pozulmasına dair dəlillər; Fəhlələrin alətlərə, qidaya və ya yaşayış üçün yerə görə ödəniş etmələrinə və ya bu məsrəflərin onların əmək haqlarından tutulmasına dair dəlillər.

**_Vahid Ömərov,_**
**_fəlsəfə üzrə fəlsəfə doktoru_**




_Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb_